

**Şakir Əlif oğlu ALBALIYEV**
**AMEA Folklor İnstitutu,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent, albaliyevshakir@gmail.com**

# Bayramların etnokulturoloji düşüncə sistemi kimi formalaşmasında MİFİK İNANCLARIN ROLU

Məsələnin qoyuluşu: Hər bir bayramın etnokultoroloji sistem kimi mənşəyi, formalaşması və inkişafında miflərin, ümumən mifoloji düşüncə sisteminin və inamların böyük rolu vardır. Bu, özünün müasir xalq bayramlarının strukturunun ən müxtəlif səviyyələrində özünü göstərir.

İşin məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd Novruz əsasında bayramın etnokultoroloji sistem kimi formalaşmasındamifik inancların rolunu araşdırmaqdır.

Qeyd edək ki, Novruz bayramının etnokulturoloji semantikasının (milli mədəniyyət sistemində yeri, funksiyası və strukturunun) öyrənilməsi baxımından onun bir düşüncə hadisəsi kimi öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Novruz bayramı sadəcə adət-ənənələrdən ibarət ritual hadisəsi yox, həm də xalqın milli-mənəvi dəyərlərini özündə yaşadan düşüncə sistemidir. Bu bayramı etnokultoroloji semantika baxımından əslində, milli kimlik bayramı da adlandırmaq olar. Azərbaycan artıq əsrlərdir ki, öz milli varlığını bu bayram vasitəsilə yaşadır. Hər bir bir yaradılış hadisəsi varlıq aləminin dialektik qanunlarına tabedir. Varlığın ilahi dialektikasına görə, bütün yaranmışlar qocalaraq ölür. Yer üzündə həyat özü özünü doğaraq yenidən yaratmaq vasitəsilə davam edir. Yer üzündəki bütün canlılar, o cümlədən bitkilər aləmi özü özünü yenidən yaradaraq varlığını davam etdirir. Xalq da bir yaradılış vahididir. O da özü özünü yenidən yaradaraq yaşayır. Bu yaradılış Novruz bayramında baş verir. Azərbaycan xalqı li ərzində onu köhnəldən, məhvə, ölümə, yox olmağa sürükləyən nə varsa - hamısından ilaxır çərşənbələrdə xilas olur və təzə ilə yenilənmiş şəkildə daxil olur. Azərbaycan insanının həyatında, məişətində, həyət-bacasında, təsərrüfatında onun özün də daxil olmaqla yenilənməyən, təzələnməyən heç nə qalmır. Novruz bayramında bu təzələnmə, yenilənmə yenidən doğulma şəklində baş verir. Bayramın bütün simvolikası yenidən doğuluşu təcəssüm etdirir. Yenilənmənin doğuluş vasitəsilə gerçəkləşdirilməsi bilavasitə mifologiya ilə bağlıdır. Bu cəhətdən, Novruz bayramının etnokuluroloji düşüncə sistemi kimi formalaşmasında mifologiyanın, mifik inancların müstəsna rolun vardır. Bu cəhətdən belə hesab edirik ki, Novruzun istər bir bayram (ritual), istərsə də düşüncə sistemi kimi yaranması, formalaşması və inkişafı bilavasitə mifologiya ilə bağlıdır. Novruz və mif bir-bririndən ayrılmaz məfhumlardır. Mif - bütün mənaları ilə inanc deməkdir. Novruz bayramının da etnokulturoloji mahiyyət başdan-bişa inanclar üzərində qurulmuşdur.

Öncə qeyd etməliyik ki, Novruzun miflə bağlılığı mədəniyyətin dialektik qanunauyğunluğunun təzahürüdür. Çünki milli mədəniyyət sisteminin elə bir ənənvi növü yoxdur ki, öz kökləri baxımından mifə, mofologiyaya bağlanmasın.

Türk alimi Öcal Oğuzun göstərir ki, "mifologiyasız hər hansı bir mədəniyyətin olması mümkün deyildir. Mifologiya insan oğlunun öyrənmək ehtiyacının başlanğıc nöqtəsidir. Mifologiya öyrənmək ehtirasının doğurduğu, günümüzə gəlib çatan ən əski bilgilərdir. Mifologiya elmin başlanğıcıdır. Təəssüf ki, günümüzün pozitivist anlayışı içərisində mifologiya elm tarixinin başına yerləşdirilməmişdir. Mifologiya insan oğlunun öz çevrəsi ilə bağlı ilk maraq və öyrənmək ehtiyacının məhsulu olaraq meydana çıxmışdır" [14, s. 245].

Mifologiyanın mədəniyyət və incəsənətə təsirindən danışarkən filoloqlar, adətən, nağıllarda, dastanlarda, bir sözlə, şifahi ədəbiyyatda yaşayan mifoloji görüşləri misal çəkirlər. Bu, bir həqiqətdir: miflər folklorun müxtəlif janrlarına transformasiya olunmuşdur. Tədqiqatçılar bu baxımdan əfsanələrin miflə bağlılığını xüsusi qeyd edirlər.

Paşa Əfəndiyev yazır ki, "əfsanələrdə xalqın gündəlik həyatı, dünyagörüşü, məişəti, adət-ənənəsi və s. öz əksini tapmışdır" [4, s. 129]. Alimin bu fikrindən məlum olur ki, əfsanı məzmunu baxımından xalqın həyatının bütün tərəflərini əks etdirir. Həmin tərəflər - ənənəvi dünyagörüşü, atət-ənənələr və s. hamısı öz kökləri baxımından mifologiya ilə bağlıdır. Onların hamısında mifik inanclar var. Xalqın ənənvi məişəti inanclarla sıx bağlıdır. Bu cəhətdən, əfsanə janrı bütün kökləri ilə mifologiyadan qaynaqlanır. F.Bayat belə hesab edir ki, "zaman keçdikcə miflərin özlərinin də bir qismi (cəmiyyət məsələlərinə yaxın olanlar) əfsanəyə çevrilmişdir" [2, s. 128]. S.P.Pirsultanlı göstərir ki, "tarixilik baxımından əsatir əvvəl, əfsanə isə sonralar yarandığı üçün zaman keçdikcə əsatirlərin özlərinin də bir qismi əfsanəyə doğru üz tutmuşdur" [15, s. 45]. "Əfsanələr mahiyyət etibarilə əsatirlərlə də çox yaxındır" [18, s. 11]. Alim belə hesab edir ki, ibtidai insanın "inam və səmimiyyət... ilk növbədə əsatirdən əfsanəyə köçmüşdür" [16, s. 7]. R.Qafarlıya görə, "əfsanələr miflərin ifadə vasitələrindən geniş bəhrələnir, ona görə də inanc təsiri bağışlamaqda davam edir" [9, s. 339]. A.Nəbiyev əfsanələrin miflə bağlılığının onların "epik düşüncənin dərin qatları" ilə bağlı olması ilə əsaslandırır [13, s. 282]. İ.Abbaslıya görə, "əfsanələrin əsas məğzini... möcüzə, söyləyici, yaxud dinləyicilər tərəfindən təsdiq olunmuş, inanılmış tərzdə anlaşılan bir obraz", yəni mif təşkil edir [1, s. 3]. M.Cəfərli təsdiq edir ki, "Əfsanələr öz məzmunu baxımından miflərə ən yaxın olan folklor mətnləridir" [3, s. 49]. R.Əliyevə görə, "əfsanədə bərpa olunan mifin ancaq nəticəsidir" [5, s. 245]. T.Fərzəliyev yazır ki, "əfsanələrdə də mifik obrazlara, kosmoqonik anlayışlara, anarxizmə, anadeomaya, animizmə, teoqoniyaya, teirqiyaya, totemə, tabuya, fetişizmə, fatalizmə, zoomorfik və antropomorfik kimi ibtidai baxışlara, təbiətin, nəbatatın, heyvanatın və ümumiyyətlə, kainatın törəməsinə dair istinad edilən çoxlu hekayət və rəvayətlərə təsadüf edilir" [6, s. 33]. Z.Hüseynova göstərir ki, "əfsanələrin məzmunu həmin mifoloji inancların əsasında formalaşır və milli-mifoloji dəyərləri əks etdirir" [7, s. 103]. M.İsmayıl təsdiq edir ki, "əfsanələrdəki mifoloji motivlər ümumtürk mifoloji düşüncə tərzinə uyğun olaraq formalaşaraq inkişaf etmişdir" [8, s. 164].

S.Rzasoy əfsanələrin folklor janrları sistemindəki yerini "əsatirlə rəvayətlərin ortasında" müəyyənləşdirir [19, s. 34]. N.Qurbanov da belə hesab edir ki, "əfsanə mifə daha yaxındır, nəinki epik növün digər janrlarına" [11, s. 68].

Qeyd edək ki, miflərin əfsanələrlə bu cür sıx bağlılığı mif-novruz münasibətlərinin də üzərinə parlaq işıq saçır. Məsələni çox da uzatmayıb yalnız onu demək kifayətdir ki, Novruz bayramı ilə bağlı çoxsaylı əfsanələr vardır və onların hamısı mifik inanclarla zəngindir.

Mifin şifahi xalq ədəbiyyatının, ümumiyyətlə ədəbiyyatın əsasını, başlanğıcını təşkil etməsi həm də mif-novruz əlaqəsinə aid məsələdir. Biz bu məsələni problem də adlandırardıq. Ona görə ki, Novruzun öyrənilməmiş məsələlərindən biri "Novruz və ədəbiyyat" problemidir. Lakin biz bu problemin adını çəkərkən heç də Novruzun bədii ədəbiyyat tarixində necə əks olunması məsələsini nəzərdə tutmuruq. Bu məsələ barəsində tədqiqatlar vardır. Bizim diqqətə çatdırmaq istıdiyimiz problem Novruz nəğmələrinin poetikasıdır. Diqqətlə yanaşsaq görərik ki, Novruzda oxunan nəğmələrin janr əlamətləri, xüsusiyyətləri çox qədimə gedib çıxır. Bu nəğmələri formal-poetik quruluşunda ən qədim şeirimizin quruluşu yaşamaqdadır. Bu cəhətdən, mifdən Novruza gələn yol həm də Novruzun sözlü mətnlərindən keçir.

Bədii düşüncə yaradılışın, kainatın mahiyyətini, həyatın qanunauyğunluqlarını açıqlayan, sübuta yetirən elmi fikirlərin ədəbi aləmdə alternativ təfəkkür formasıdır. Dəqiq elmlərin kəşfləri, isbata yetirdikləri faktlar humanitar fikirdə bədii düşüncə orbitində paralel ifadəsini tapır. Məsələn, həndəsədəki hər hansı sübutsuz qəbul olunan anlayış-teorem olan aksiomun ədəbiyyatdakı paralel qarşılığını bədii sualla müqayisə edə bilərik. Necə ki, hər hansı aksiom sübutsuz qəbul edilən anlayış kimi qəbul olunur, eləcə də bədii sual şəklində işlədilən fikir də eyni dərəcədə cavabı özündə ifadə olunan sual kimi (əslində cavab kimi) qəbul olunur. Buna adekvat olaraq şifahi yaradıcılıqdakı atalar sözlərini, yazılı ədəbiyyatdakı aforizmləri, kəlamları da göstərmək olar. Nağıllarımızdakı mifik donda təqdim olunan uçan xalça obrazının əsrlər sonra elmi texnikanın kəşflərinin nailiyyətləri sayəsində bu gün artıq adiləşmiş samolyot, vertalyot, nüvə silahları, raketlər və s.-nin timsalında gerçəkləşməsi faktlarını da bədii düşüncənin kəşfi ilə elmi idrakın kəşfi arasında olan paralellik kimi anlamaq olar.

"İnsanın yaranması" ilə bağlı mifoloji mətnə diqqət etsək, burada da analoji olaraq bədii düşüncə arxasında gizlənmiş olan dünya haqqında elmi təfəkkürün alternativ bədii ifadəsi ilə rastlaşarıq: "Allah bəndəni yaratmağ isdiyirmiş. Onun özünün neçə dənə mələyi varmış. O mələklərdən hangisini göndərifsə yerdən torpağ gətir, torpağ qışqırıf. Heş biri gətirə bilmiyif. Yenəndə torpağ elə vahimə çıxardıf ki, məni götürmə. Axırda bu mələklərin heş biri yarıtmır, Allah Azreyili çağırır. Deyir ki, get torpaxdan bir az götür gəl.

Deyir: - Qurban olum, axı bir belə mələklər gedib torpaxdan götürə bilmiyif. Torpax vahimə çıxardır ki, mənnən götürməyin, yaralamayın məni.

Torpax da özü bir canlıdı. Axırı Allah-tala əmr eliyir ki, mən saa deyirəm, get götür gəl. Azreyil yenir torpağın üstünə. Torpax vahiməsini qaldırır, çığırır-bağırır: - Yox, maa toxunma, məni yaralama.

Deyir: - Ə, sənnən aparıramsa, saa qayıdacağ.

Onçun görürsən, deyir insan torpaxdan yaranıf, torpağa da qismət olacağ. Get indi yüz illik, min illik qəbri aç. Gör orda bir şey qalıb? Torpağ oluf, çıxıbgedif. Onnan sora torpağ rahatçılıx tapıf. Deyif ki, əgər maa qayıdacaxsa olar" [10, , s. 5]. Mətndə insanın yaranmasından danışılsa da, dünya, təbiət qanunları barədə bitkin fikirlərə də işarələr var. Burada fizika, kimya, təbiətşünaslıq elmlərinin sirləri də bədii fikir müstəvisində açılır: maddə kütləsinin itməməsi qanunu, materiyanın bir cisimdən başqa cismə çevrilməsi faktı və s. bu kimi elmi düşüncənin inikası görünür. Buradakı "İnsan torpaxdan yaranıb, torpağa da qismət olacaq" fikri hər şeyi deyir. Eyni zamanda bu cümlə bir məsəl, atalar sözü səviyyəsindədir. Xalq müdrikliyi həm də onda özünü göstərir ki, burda bir janrın mənası (atalar sözü, məsəl xarakteri daşıyan insanın torpaqdan yaranıb torpağa da qayıtması - qismət olması fikri) digər janrın tərkibində - mifoloji mətnin daxilində açılır. Başqa sözlə, bir janra məxsus olan fikrin digər janrda açımı - məsəlin mifoloji yöndən açılıb-çözülməsi faktı göz önündədir. Bununla həm də dünyanın, təbiətin və cəmiyyətin inkişaf qanunauyğunluqları mifoloji rəvayət vasitəsilə bədii düşüncənin aynasında əks olunur. Əzrayılın torpağa üz tutub: "Səndən aparıram, sənə də qayıdacaq" deməsi həm təbiətin harmonik nizamının pozulmayacağı həqiqətini əks etdirir, həm də bir canlı timsalında "məni yaralamayın" deyib həyəcanlanması zəminində yuxarıdakı fikrin ona çatdırılması ilə bir psixoloji sakitlik yaratması və "əgər mənə qayıdacaxsa, onda məni yarala" deyib bir parçasının ondan qoparılmasına razılaşması - "Ondan sonra torpağın rahatlıq tapması", əslində, ictimaiyyətin marağına - narahatlığına səbəb olan olum-ölüm məsələlərinə aydınlıq gətirməyə xidmət edir. Söyləyicinin hətta mətnə müdaxiləsi (haşiyəsi) kimi verilən "get indi yüz illik, min illik qəbri aç, gör orda bir şey qalıb, torpaq olub çıxıf-gedif" cümləsi sosial varlıq olan insanın bu dünyada cismani baxımdan gəldi-gedərliyini diqqətə çatdırmaqla həyatın, dünyanın əsaslarının bu prinsipə söykənməsinin mənasını anlatmaqdır.

Bu mif mətninin ilk baxışdanı Novruzla heç bir əlaqəsi yoxdur: nə Novruzun, nə ona məxsus atributlarının, nə də ümumiyyətlə hər hancı bir bayramın adı çəkilmir. Lakin mif mədəniyyətin, incəsənətin əsasında durduğu kimi, bu mif də mədəniyyət və incəsənətimizin ən nəhəng hadisəsi olan Novruzla qırılmaz köklərlə bağlıdır.

Sözü gedən mif mətni "Allah bəndəni yaratmağ isdiyirmiş" cümləsi ilə başlayır. Beləliklə, bu mifin əsasında insanın ilahi yaradılış konsepsiyası durur. Həmin konsepsiya eynilə Novruz yaradılış konsepsiyasını təşkil edir. Novruz birmənalı şəkildə yaradılış bayramıdır. Bu bayram vasitəsilə insan və dünya yenidən yaradılır. Həmin prosesin əsasında kosmos-xaos-kosmos sxemu durur. Yəni köhnə ilin axırında mövcud dünya (kosmos) məhv olur (xaos) və yenidən yaranır (kosmos).

Mif mətnində insan torpaqdan yaradılır: torpaq antropoloji yaradılışın əsas ünsürü kimi çıxış edir. Novruz bayramında da torpaq əsas yaradıcı stixiyalardan biridir. Novruz rituallarının bir çoxu torpağın yenidən dirilməsi ilə bağlıdır.

Göründüyü kimi, mif dünyanın strukturunu - nizamını bədii fikir işığında təqdim edir, elmi-dünyəvi bilikləri mifik donda təsəvvür yaratmaqla bədii düşüncə şəklində çatdırır. Mif yaradıcılığı insanların dünyanı qavram vasitəsidir və epik mətnlərin dili ilə bədii düşüncənin formulu çevrəsində izahını tapır. Elə miflərin, mifoloji mətnlərin yaşam gücünün sirri də bundadır ki, dünyanı maddi şəkildə və mənəvi tərəflərilə birgə vəhdət halında bədii təfəkkür aynasında açıb insanlara göstərir.

*(Davamı var)*